# Kəssə hər kim tökülən qan izini...

(Əvvəli 6-cı səhifədə).

ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq. Bu gündən sonra Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq, ərazi iddiasına son qoyacaq və qoymalıdır. Çünki uzun illər Ermənistanın məsuliyyətsizliyinin mənfi təsirləri göz qarşısındadır. Azərbaycan durmadan irəliləyir, işğaldan azad olunmuş torpaqlarda genişmiqyaslı tikinti-abadlıq işləri gedir və biz öz resurslarımıza güvənirik. Qarabağ və Şərqi Zəngəzur bölgələrini artıq yaşıl enerji zonası elan etmişik. Orada yalnız bərpa olunan enerji mənbələrindən istifadə ediləcək.

Artıq “Dağlıq Qarabağ” adlı inzibati ərazi yoxdur. Qarabağ iqtisadi rayonu var, Şərqi Zəngəzur kimi tarixi torpağımız var və Zəngəzur Dəhlizi reallaşır. Bu ərazilər qədim tarixə malik dədə-babalarımızdan qalan mirasdır. Birmənalı şəkildə bu torpaqlar Azərbaycana məxsusdur, biz bu torpağın sahibləriyik. Sonunda haqq-ədalət qalib gəldi, biz istək və arzularımıza çatdıq. Böyük gücümüzlə ürəklərdə qalan niyyətlərimizi reallaşdırdıq. Biz bunu vəhdətimizlə,öz gücümüz hesabına həyata keçirdik. Bu gün də qalib ölkənin vətəndaşı kimi qürur duyuruq. Dövlətimiz hər zaman apardığı daxili, xarici siyasəti nəticəsində irəliyə gedib, uğurlara nail olub. Çünki, bir dövlət, xalq olaraq amalımız, niyyətimiz təmiz və safdır, sülhsevərik. Tarixin hər üzündə sülhü dəstəkləmişik və bu bizim bir həyat amalımıza çevrilib. Bu gün də sülh və regionun inkişafı naminə Azərbaycan danışıqların aparılmasına böyük təşəbbüs göstərdi və bütün dünya buna şahidlik edti.

Biz sülhü sevirik, dəstəkləyirik, təbliğ edirik. Azərbaycan və Ermənistan arasında sülh razılaşmasının üzərində biz sözümüzü demişik. Müharibə bitib, münaqişə öz həllini tapıb. Biz regionu daha da proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz regiona çevirmək üçün yeni fəaliyyətə başlamalıyıq. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqaz regionu üçün yeni imkanlar yaradacaqdır. Buna görə də hər nə olursa-olsun sülhün vacib amil olduğunu sonda Ermənistan da anladı. Aparılan hər bir yeni danışıq regionun inkişafı üçün yeni başlanğıc nöqtəsi ola bilər. Azərbaycanın mövqeyi çox aydındır. Münaqişə artıq həll olunub, keçmişə qayıdış olmamalıdır və yol verilməzdir. Gələcək və sülh haqqında, regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında fəaliyyətimizi genişləndirməliyik. Bizim bir humanist dövlət olduğumuzu, sülhün, əmin-amanlığın tərəfdaşı, sülh carçısı prezident İlham Əliyev bir daha Vaşinqtondan dünyaya bəyan etdi .

Biz qalib ölkə olaraq zəfər tarixini yazdıq və Vaşinqton görüşü bunu bir daha təsdiqlədi. Biz hər zaman sülh haqqında danışırıq, sülhü dəstəkləyirik. Xalqların firavan yaşayışı, dövlətlərin inkişafı üçün indi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan buna nail oldu. Bu gün Birgə Bəyannamənin əldə olunması deməyə əsas verir ki, Qafqazda sülh uzunmüddətli və dayanıqlı olacaq. Bu gün Azərbaycanın mövqeyi tamamilə aydındır. Azərbaycan Qafqazda sülh gündəliyini təbliğ edir. Azərbaycanın açıq bəyan edilmiş və beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmuş sülh gündəliyi və təşəbbüsləri Cənubi Qafqazda regional inkişaf üçün yeni imkanların yaradılmasına yönəldilib. Bu, təkcə Azərbaycan və Ermənistan arasında deyil, ümumiyyətlə, Cənubi Qafqaza aid məsələdir. Çünki sülhü qorumaq hər iki dövlətin əsas mövqeyi və prinsipi olmalıdır. Ermənistan da bu məsələlərə fikir verməli və diqqətdə saxlamalıdır. Dayanıqlı - dinamik inkişaf, dövlətlərin, xalqların firavanlığı naminə sülh vacib amildir və sülhü qorumaq naminə hər bir maneəni dəf etmək ümdə məsələ olmalıdır. Bununla da Vaşinqton görüşü Azərbaycan Prezidenti İlham Əliyevin daxili və xarici siyasətinin gücünü, tarixi uğurunu bir daha təsdiqlədi.

**İlhamə SEYİDOVA,**
**«Qəbələ səsi”nin ştatdankənar müxbiri.**

## 8 sentyabr - Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günüdür

Bu tarixi gün 1958-ci ilin mayından qeyd edilir. Həmin il Buxarestdə keçirilən Beynəlxalq Jurnalistlər Təşkilatının IV Konqresində bununla bağlı qərar qəbul olunub . Dünya mediası üçün əlamətdar sayılan bu tarix 1943 - cü il sentyabrın 8-də hitlerçilər tərəfindən qətlə yetirilmiş çexiyalı jurnalist Yulius Fuçikin xatirəsinə təsis edilib. O cavanlığından siyasətlə maraqlanmağa başlayıb, 1921-ci ildə Çexiyada Kommunist Partiyasının yaradıcılarından biri olub.

1941-ci ildə Fuçik Kommunist Partiyasının ikinci mərkəzi gizli idarə heyətinin üzvü idi. 1942-ci ildə onu altı digər azadlıq hərəkatının üzvləri ilə birlikdə həbs ediblər.

Dünya jurnalistlərinin həmrəyliyinə, birgə, qarşılıqlı əməkdaşlıq müstəvisində fəaliyyət göstərməsinə çox böyük ehtiyac var. Qloballaşan, yenidən qütbləşən və yeni qütblərə hakimlik iddiasında olan böyük güclərin dünya sistemində yaratdığı kataklizmlər, müharibələr, insan hüquq və azadlıqlarının pozulması, insanlığa, bəşəriyyətə qarşı vandal davranışlarla bağlı informasiyaların düzgün araşdırılıb dünya ictimaiyyətinə çatdırılması mövcud reallığın ən mühüm tələbidir.

**“Qəbələ səsi”**

## Zaman və gənclik

Gənclik zaman vahidi deyil, düşüncə tərzidir. Antik filosof Aristotel demişdir: “Gənclərin yetişməsinə əhəmiyyət verin. Çünki bu yolda hər hansı bir məsuliyyətsizlik məmləkətin təməlini məhv edər“. Gənclik millətin yaşaması üçün bir növ təməl daşıdır. Gənclik gələcəyimizin təminatıdır.

Bir millətin, bir dövlətin mövcud olmasında, inkişafında sağlam düşüncəli, bilikli, milli-mənəvi, əxlaqi dəyərlərə sahib gəncliyinin rolu çox böyükdür. Ona görə də gənclərin düzgün yetişdirilməsi, düzgün istiqamətləndirilməsi və gələcəyə hazırlanması hər bir dövlətin ən vacib məsələlərindən biridir.

Yaşanılan hər əsrin zamanla gəncliyin qarşısında öz tələbləri, qanunauyğunluqları olmuşdur. Hər əsr öz qanunauyğunluqlarına görə gənclik yetişdirmişdir. Ancaq ən əsası odur ki, hər bir zaman kəsiyində gəncliyə diqqət etmək, onu öz axarına buraxmamaq lazımdır. Çünki şumlanmayan torpaq kimi orada qanqal otları, tikanlar-bir sözlə insanlığa zidd alaq “otları” da yetişə bilər.

Milli adət-ənənələr gəncliyin zamanla formalaşmasında müstəsna rol oynayır. Bax, elə buna görə də, keçmişin hər anından dərs alınmalıdır ki, həm müsbət, həm də mənfi xarakterləri düşüncə tərzinin süzgəcindən keçirməklə gələcəyə doğru irəliləyə biləsən, həm də insanlığa - xalqına məxsus bir tərzlə.

Bu günkü gənclik zamanın, dövrün tələbinə uyğun tərzdə formalaşmalıdır. Ancaq aid olduğu millətin, xalqın soykökünə söykənməlidir. Azərbaycan gənci öz inkişafını milliliklə tarazlaşdırmalı, sonra inkişaf etmiş dövlətlərin ideal gəncliyinə inteqrasiya etməlidir. Ən adidən başlasaq-yəni geyim tərzi, davranış tərzi, elmi biliklərə yiyələnmək və əmək məşğuliyyətində formalaşmaq və yetişmək xüsusiyyəti belə özünəməxsusluğu ilə seçilməlidir. XXI əsrin inkişaf etmiş texnalogiyasından belə milli-mənəviyyatına uyğun tərzdə istifadə etməlidir. İstifadə etdiyi sosial internet səhifəsindən, televiziya verilişlərindən, “şouçuluqdan“, turizmin inkişafından belə istifadə edərkən millilik xüsusiyyətlərinə diqqət edilməlidir. Bir növ örnək alarkən seçimində yanılmamalıdır. Onların yanılmamaları üçün öncə yaşadığı mühitə diqqət edilməlidir. Bu mühit isə ailədən başlanır. Sağlam ailədə sağlam da insan yetişir. Aldığı təhsil körpələri formalaşdırır. Tərbiyə ailədə və təhsil aldığı elm ocaqlarından start götürsə də ətraf mühit tərbiyəyə öz təsirini göstərir. Ona görə də sağlam gənclik yetişdirmək üçün ta körpəlikdən həm ailə, həm təhsil aldığı məktəb kollektivi məsuliyyət və diqqətini unutmamalıdır. İnternet səhifələrindən düzgün istifadəyə nəzarət etməlidir.



Onu da qeyd edək ki, bu gün yaşadığımız zamanın ən ağrılı nöqtəsi odur ki, istifadə etdiyimiz telefonda ayrı-ayrı proqramlara nəzarət çox zəifdir. Bu proqramlara yüklənərək yaşından asılı olmayaraq hər kəsin oxuduğu kəlam və “sitatlar“, videolar, canlı yayımlar, blogerlik arzuları gəncliyimizə çox mənfi təsir göstərir. Milli televiziya proqramlarının əksəriyyətinin “şou” xarakterli - buradakı geyim və davranış tərzləri, danışıq yeniyetmə və gənclərimizə öz təsirini göstərməkdədir. Yeniyetmə gənclərin, qızların belə bəzən elektron siqaretlərdən istifadəsi, öz həmyaşıdları ilə müxtəlif videoların, xüsusilə “canlı yayımlar“-dan istifadə etməsi, bayağı geyim və danışıq tərzlərinə yol verilməsi yaşlı nəsli düşündürməlidir. Axı tarixi keçmişimiz, qəhrəman gəncliyimiz, vətənpərvərliyimiz, elm sahəsindəki uğurlarımız gəncliyimizə ən gözəl nümunədir. 44 günlük müharibədə şəhadətə qovuşanlar, sağlamlığını itirənlər, elm aləmində dünyanın müxtəlif ölkələrində tanınan kadrlarımız bu gəncliyin yetirmələridir.

Zaman irəlilədikcə diqqət və məsuliyyət hissi də artmalıdır. Sağlam gənclik, sağlam ailədir. Sağlam ailə isə sağlam cəmiyyətdir. Sağlam cəmiyyətdə yaşamaq isə insanlığa məxsus yaşam tərzidir. Bu yaşam tərzinə məxsus yaşamaq isə hər kəsin məqsəd və arzusudur. Bu arzunun reallığını daim qoruyaq! Bir sözlə, gənclik və zaman məfhumu daim diqqət mərkəzində olmalıdır.!

**BİBİXANIM.**




QƏBƏLƏ səsi

qəzetinə

2025-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*


## İTMİŞDİR

Qəbələ rayon sakini **Xıdırov Rəvan Dünyamalı oğluna** məxsus traktoru idarə etmək üçün verilmiş **sürücülük vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Dizaxlı kənd sakini **Xasiyev Vaqif Aslan oğluna** məxsus LADA NİVA LEGEND markalı minik avtomobilinin **texniki qeydiyyat sənədi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Nohurqışlaq kənd sakini **Məhərrəmov Bayram Siyah oğluna** məxsus 36 BC 656 nömrəli VAZ 2106 markalı minik avtomobilinin **texniki qeydiyyat sənədi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Bunud kənd sakini **İsmayılzadə Rahil Namiq oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.


Redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində media subyekti və çap mediası redaksiyası kimi Media Reyestrinə daxil edilmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149 VÖEN: 4402717261

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 900*